Azərbaycanın zəngin kitab məbədi kimi tanınan Milli Kitabxanada həyat həmişə qaynayır, kitabxana işçiləri, oxucular özlərini bu məbədin daimi sakini kimi hiss edirlər. Hər cür şəraiti olan bu gözəl məkanda insan oxumaq və işləməkdən zövq alır. Öz işindən zövq alan belə insanlardan biri də Zəminə Mustafayevadır.

Zəminə xanım üzun illərdir ki, milli kitabxananın kitabişləmə və kataloqlaşdırma şöbəsində bölmə müdiridir. O, kitabxanaya yeni daxil olan kitabların kataloq kartoçlalarını kataloq qutularına yerləşdirir. Onların düzgün yazılmasına, müvafiq elm şöbələrinə verilməsinə nəzarət edir, necə deyərlər, hər kataloq kartoçkasına gözünün nurunu verir. Zəminə xanım həm də fonddan bu və ya digər səbəbdən çıxarılan ədəbiyyatın şifrələrini aktlar üzrə kataloq kartoçkalarından silir. Məlum məsələdir ki, bu prosesi əlifba kataloqunda həyata keçirmək o qədər də mürəkkəb deyil. Lakin nəzərə alsaq ki, sistemli kataloqda kitab mövzusuna görə bir neçə kartoçkada əks olunur, o zaman Zəminə xanımın nə qədər böyük zəhmət çəkdiyini qeyd etmək lazımdır. Ktabxana-biblioqrafiya təsnifatını az qala əzbər bilən bir mütəxəssis üçün bu iş o qədər çətin olmasa da adamdan fiziki və zehni qüvvə ilə yanaşı , həm də səbir tələb edir. Zəminə xanımın işi bununla da bitmir. Zaman keçdikcə kartoçkalar oxucular tərəfindən istifadə olunduğundan köhnəlir və yararsız hala düşür. Zəminə xanım heç bir göstəriş gözləmədən bu işi də qaydasına qoymağa vaxt tapır, onları yeniləri ilə əvəz edir.



# Peşəsinin vurğunu

Uzun müddətdir ki, milli kitabxanada elektron kataloq tətbiq olunur. Kitabxanaya gələn gənc oxucular əsasən, elektron kataloqla işləməyə üstünlük verirlər, qismən yaşlı və orta nəsil isə ənənəvi kataloqda axtarış aparırlar. Lakin Zəminə xanım yeni nəslin də ənənəvi kataloqdan yararlanmasına çalışır, onlara kataloqdan istifadəni öyrədir. Onun gülər üzü, qayğıkeş çöhrəsi kitabxanaya yenicə üzv olan oxucuların diqqətindən yayınmır və çox vaxt oxucular istədiyi kitabı tapmaq üçün məhz ona yaxınlaşırlar. Bir sözlə, Zəminə xanım həm peşəkar, həm də insanlara xeyixahlıqla yanaşmağı özünə mənəvi borc bilən əməkdaşlarımızdan biridir.

Atalar sözüdür: İş insanın cövhəridir. Bu zəhmətkeş xanım öz işindən heç vaxt yorulmur, işinə və oxuculara sevgi ona sözün əsil mənasında enerji verir. Elə bu keyfiyyətlərinə görədir ki, Zəminə xanım kitabxana kollektivinin sevimlisi, həmkarlarının məsləhətçisidir. İş həyatına yenicə qədəm qoyan gənc kitabxanaçılar üçün bu xanım əsil məktəbdir. Kitabxana işində ortaya çıxan hər hansı problemin həllində Zəminə xanımın təcrübəsi hər zaman köməyə çatır.

Biz ömrünün 60-cı baharını yaşayan həmkarımıza can sağlığı və işlərində uğurlar arzulayırıq. Onu da arzulayırıq ki, illərdir doğma Şuşasından ayrı düşən, ağrı-acısını doğma evi hesab etdiyi milli kitabxanada sevdiyi işi ilə ovudan Zəminə xanım qarşıdan gələn yeni illərini öz ata ocağında qarşılasın.

*Bəybala ələsgərov, tarix üzrə elmlər doktoru*

*Tərlanə əliyeva, Azərbaycan Milli Kitabxanasının aparıcı kitabxanaçısı*